UOT 94 "19/..."

*F.M.Allahverdiyeva*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç., 23*
*E-mail: faridaallahverdiyeva@gmail.com*

# FRANSANIN ORYANTALİST İSLAM ANLAYIŞI: FRANSIZ İSLAM DÜŞÜNCƏSİNİN TƏŞƏKKÜLÜ

*Son illər ərzində Avropa dövlətləri İslama və müsəlmanlara qarşı müəyyən tədbirlər görməyə başlamışdır. Avropanın hegemon dövlətləri arasında sayılabiləcək Fransanın da, İslam və müsəlmanlar mövzusunda gördüyü tədbirlər, dünyada baş verən son hadisələr fonunda daha da sürətlənmişdir. Qərb cəmiyyətinin böyük bir qismini təşkil edən müsəlman vətəndaşların sayı günü-gündən Avropada artmağa davam edir. Bununla da, onların sosial ehtiyacları, gözləntiləri, problemləri ön plana çıxır. Beləliklə, Fransa hökuməti də, həm öz ölkəsində yaşayan təxminən altı milyon müsəlman əhaliyə, həm də dünya üzərində İslama qarşı siyasət formalaşdırmağa məcbur oldu. Bu gün dünyada beş qitəyə yayılan, yarandığı gündən dünya mədəniyyətinə töhfələr vermiş İslam, son illər ərzində Qərb dövlətlərinin, xüsusən də Fransanın daxili və xarici siyasətində mühüm amilə çevrilmişdir. 11 sentyabr Amerikadakı terror hadisələrindən sonra Qərbdə formalaşan, Ərəb baharı hadisələrindən sonra daha da geniş yayılan İslam düşmənliyi (İslamafobiya), xüsusən də Fransada artan İslam əleyhdarı düşüncələrin mümkün səbəbləri hələ də aktual müzakirə mövzusudur.*

*Açar sözlər*: Fransa, İslam, İslamafobiya, siyasət, oryantalist baxış

## *Giriş*

Fransa, Avropada dünyəviliyi mənimsəyən və bu prinsipi konstitusiyasına daxil edən ilk ölkə olmaqla yanaşı, qədim tarixi, zəngin mədəniyyəti, sosial quruluşu ilə Qərbi Avropanın köklü ölkələrindəndir. Fransanın tarixinə baxdığımızda, müstəmləkəçilik dövründə Yaxın Şərq və Məğrib bölgəsi başda olmaqla Şimali Afrikanın bir çox bölgəsinə, əsasən müsəlmanlar yaşayan bölgələrə uzun müddət hakim olmuşdur. Müstəmləkə dövrünün nəticəsi olaraq, aldığı sıx köçlər nəticəsində, homojen bir cəmiyyətdən heterojen bir cəmiyyətə çevrilmişdir. Marsel başda olmaqla, bir çox fransız şəhərlərində "müsəlman fransızların" sayı get-gedə artmışdır.

Fransanın İslamla ilk qarşılaşması 717-718-ci illərdə, Hür Əbdürrəhmanın komandanlığı ilə, müsəlmanların Fransa ərazisinə daxil olması ilə olmuşdur. Fransanın Lion və Bordo şəhərlərinə qədər irəliləyən müsəlmanlar, 975-ci ilə qədər Marsel şəhəri yaxınlıqlarında məskunlaşaraq varlıqlarını davam etdirmişlər (3, 165-184). XVIII əsrdə Napoleonun Misirdən Əlcəzairə qədər, şərqdəki müsəlman ölkələrinə qarşı başlatdığı hökmranlıq siyasəti nəticəsində, Fransanın müstəmləkəçilik siyasəti yaranmağa başladı. Zamanla Fransanın tabeliyindəki müstəmləkə müsəlman ölkələri müstəqillik əldə etsələr də, müstəmləkə siyasətinin təbii nəticəsi olaraq, fransız və müsəlman cəmiyyətlər arasında dil, mədəniyyət və siyasət baxımından yaxın əlaqələr quruldu. Beləliklə, orta əsrlərdən bəri Fransa, müsəlmanları tanımağa başladı. Bu tanıma, müəyyən mənada Fransanın bu günə qədər İslam və müsəlmanlarla qurduğu əlaqələrin əsasını təşkil edir.

Soyuq müharibə dövrü Sovet Sosialist Respublikaları İttifaqının və kommunist blokunun dağılması ilə başa çatdı. Şərq və Qərb arasında kəskin ayrışma, Soyuq müharibənin mütləq qalibi olaraq Qərb blokunun ayrılmasıyla nəticələndi. Ən sadə formada əhalinin bir

yerdən digər yerə daimi və ya müvəqqəti hərəkəti olaraq təyin edə biləcəyimiz miqrasiya fenomeni, Avropada müsəlman əhalinin sıxlığının formalaşmasında mühüm rol oynamışdır. Beləliklə, İkinci Dünya müharibəsindən sonra da, əvvəlcə iş, sonra məskunlaşmaq ümidi ilə, şərqdən qərbə doğru köç nəticəsində milyonlarca müsəlmanın Fransa başda olmaqla, Avropa ölkələrinə axını davam etməkdə idi. Müsəlmanların qərbə doğru kütləvi inteqrasiyası səbəbindən, İslamı qəbul edən qərb vətəndaşlarının sayı da artmağa başladı və İslam geniş kütlələrin gündəminə gəlməyə başladı. Avropa qitəsinə İslam və müsəlmanların yayılması, siyasi, iqtisadi, mədəni və dini cəhətdən narahatlıqlar da doğururdu.

Fransada yaşayan müsəlmanların qəbul edilməsi, 1958-ci ildə prezident Şarl de Qollun "Fransada yalnız bir kateqoriya insanlar yaşayır" bəyanatından sonra, təsdiqlənmiş oldu. Lakin, tarixi prosesdə Avropa ölkələrində müsəlmanların sayının artması, qərbin müasir baxış formasını müdafiə edən qrupları, assimilyasiya və inteqrasiya ilə bağlı atılan addımların uğursuzluğunu düşünən siyasətçiləri narahat edirdi. Afrikalı iki gəncin, 2005-ci ilin oktyabrında Parisdə polisdən qaçarkən elektrik cərəyanı vurması nəticəsində ölməsi və o zamankı prezident Nikolya Sarkozinin ölən gənclər üçün "quldur" ifadəsini işlətməsi, Fransada 3 həftəlik davam edən, afrikalı gənclərin iğtişaşlarına səbəb olmuşdu. Bu hadisənin kökündə heç bir dini qarşıdurma olmamasına baxmayaraq, Avropa mətbuatı bu iğtişaşları müsəlman gənclərin Fransa küçələrində terror etməsi, dükanlara, avtomobillərə zərər yetirməsi kimi işıqlandırdı. Bu cür hadisələrin yaşanması, Fransada müsəlmanların vətəndaş kimi tanınmasına baxmayaraq, onları etnik kimlikləri ilə deyil, sahib olduqları inanca görə, ifratçı sağ İslam düşmançılığı ideologiyasının hədəfinə çevirirdi. İslam inancının və müsəlmanların həyat tərzinin, Fransanın dünyəvilik anlayışı ilə üst-üstə düşmədiyini nəzərə alarsaq, mediada İslam əleyhinə yazıların və xəbərlərin artması, buradakı müsəlmanlara qarşı təqib və hücumların artmasına səbəb oldu.

Fransız sosioloqu Şmuel Triqano, Avropada müsəlmanların artmasını "Avropanın Osmanlılaşması" kimi ifadə etmişdir. Bəzi fransız mütəfəkkirlər yazdıqları əsərlərində, Fransanın müsəlmanlar yaşayan bölgələrini, "azadlıq və müasirliyini itirmiş torpaqlar", "demokratiyadan kənar ərazilər" olaraq adlandırdılar. 2012-ci ilin oktyabrında, Fransanın "Le Fiqaro" qəzetinin dərc etdirdiyi "İslamın imici" adlı hesabatda müsəlmanlara qarşı Fransız cəmiyyətinin baxışı əks etdirilmişdir. Bu sorğuda alınan nəticələrdə, çox az bir hissə müsəlmanları öz milli kimliklərini zənginləşdirən ünsürlər olaraq görərkən, sorğuda iştirak edənlərin yarısına yaxını müsəlmanları öz cəmiyyətləri üçün təhlükə olaraq gördüklərini bildirdilər. Xüsusən də, müsəlmanların gündəlik həyatda hicabdan istifadə etməsi, onların fransız cəmiyyətinə uyğunlaşa bilməməsi fikirləri və İslam əleyhinə artan mənfi rəylər kimi şərh edə bilərik (6).

Tarixi proses diqqətlə araşdırıldığında, İslam anlayışının Avropa üçün yeni və naməlum bir fenomen olmadığı açıq şəkildə görünür. İslamın doğulmasından bəri, Xristianlıq və İslam siyasi, mədəni, iqtisadi və intellektual sahələrdə tez-tez üz-üzə gəlmiş, tarixi dövrdə bu iki dinə etiqad edən xalq nümayəndələri arasında, müxtəlif səbəblərdən gərginlik xətlərinin yaranmasına səbəb olmuşdur. 2001-ci il ABŞ-da baş verən terror hadisələri, Yaxın Şərqdə formalaşan Əl-Qaidə terror qrupunun törətdiyi əməllər, anti-İslam siyasətini və təbliğat müharibəsini gücləndirdi. İslam və terror anlayışlarının yanaşı işlədilməyə başlanması, Avropada formalaşan ksenofobiyanı (əcnəbi qorxusu), İslamafobiya (İslam düşmənçiliyi) ilə əvəz etdi. Diqqətin Fransaya yönəldilməsinin səbəbi, bəzilərinin "inteqrasiya", bəzilərinin isə "assimilyasiya" adlandırdığı kimlik siyasətləri nəticəsində, bir çox fərqli din və etnik qrupların nümayəndələrinin "Fransız milləti" kimliyi altında, Fransaya və Fransız kimliyinə uyğunlaşaraq yaşamamış olmasıdır (10). Fransa, İslamın tanınması, müsəlman azlıqların

hüquqlarına riayət edilməsi, İslam dininə mənsub olanlara qarşı tolerantlıq kimi müxtəlif mövzularda fərqli siyasət və anlayışlar qəbul etmişdir.

İslamın Avropada sürətlə yayılması və müxtəlif səbəblərdən miqrasiya nəticəsində Fransada müsəlman əhalinin məskunlaşması, qərbdə İslama qarşı fərqli yanaşmalar yaranmasına səbəb oldu. Bu yanaşmalardan daha qabarıq olaraq qəbul ediləni, müsəlmanların qərb cəmiyyətlərinin həyat tərzinə təhlükə olaraq görünməsiydi. Bu səbəbdən bir çox Avropa ölkələrində İslamı qərbə daha uyğunlaşdırmaq, ediləcək bir sıra islahatlar nəticəsində qərbdəki müsəlmanların həyat tərzini yenidən dizayn etmək məqsədilə müxtəlif layihələr ön plana çıxır.

Dünyada dünyəvilik prinsipini mənimsəyən Fransa isə, dünyəvilik adı altında ölkəsində formalaşan müxtəlif din, dil, irqi və mədəni mənsubiyyətləri dəyişdirmək və başqalaşdırmaq funksiyasını yerinə yetirir. Bir çox Avropa dövlətləri kimi, Fransa da İslama və müsəlmanlara qarşı formalaşdırılan layihələr yaratdı və bunlar "Avropa İslamı", "Fransa İslamı" adı ilə tanınmağa başlandı (3, 165). Bu layihələrdəki paradiqma, İslamı Avropa mədəniyyətinə və özlərinə uyğun bir şəkildə dəyişdirməyə cəhd edilməsi, müsəlman kimliklərini qərb dəyərlərinə uyğun qurmaqdır. İslamı protestantlaşdırmaq, Avropaya xas İslam formalaşdırmaq üçün atılan addımların Fransa nümunəsi, "Fransız İslamı" adı altında İslamı öz məqsədlərinə uyğun şəkildə dəyişdirmək məqsədi daşıyır.

Fransa parlamenti 2010-cu ildə, ibadət və yaşayış yerləri istisna olmaqla, ictimai yerlərdə üzü örtülü paltar geyinməyi, hicabda olmağı qadağan edən qətnamə qəbul etdi. Fransa rəhbərliyi bu qərarı təhlükəsizlik məqsədi ilə verdiklərini bildirsələr də, bu qərar Sarkozinin və Paris administrasiyasının müsəlmanlara qarşı münasibətini ehtiva edirdi. Kommunist Partiyasından olan Andre Qerin də, hicabda olan qadın obrazını, həbsdə olan qadın obrazına bənzədərək, hicabın Fransa Respublikasının qadın ləyaqəti ideyasına zidd olduğunu bildirərək, örtünmənin xoş qarşılanmadığını, fransız dünyəviliyinə uyğun olmadığını bildirərək, Sarkozini dəstəkləmişdir. Parlament komissiyası tərəfindən hazırlanan, "Qerin hesabatı" kimi tanınan hesabatda, İslamı və İslam simvollarını Fransa üçün real təhlükə adlandıraraq, oryantalist baxış nöqteyi-nəzərindən hicab və örtünün İslamdan öncəki geyim adətləri olduğunu, İslam anlayışından daha çox, radikal islamçılığın ziddiyətləri üzərində qurulduğunu bildirirdi. Sözügedən hesabatda Qerin, bu təhlükədən qorunmağın yolu kimi, Fransaya uyğunlaşan "Fransa İslamı" modelinin yaranmasının vacibliyini işarə edirdi (5).

Fransa İslamı ideyasının yaranmasının əsasını təşkil edən tarixi prosesə, ABŞ-da 2001-ci il, 11 sentyabr terroru və 2005-ci il Fransada şəhərətrafı hadisələrdən sonra, 2015-ci il, 11 sentyabr Çarli Hebdo, 13-14 noyabr Paris və Nitsa şəhər hücumları xüsusi bir yön verdi. Avropada terror hücumlarının yaşanması, ümumi bir yanaşma ilə, İslama və müsəlmanlara qarşı təbliğat siyasətini gücləndirərək, Fransada İslamın müddəalarına dəyişiklik edilməsi məsələsini gündəmə gətirdi. XX əsrin sonlarından etibarən Fransada daxili siyasətin əsas müzakirə mövzusuna çevrilmiş Fransa İslamı məsələsi, Fransız İslam layihəsi çərçivəsində Sarkozinin dövründə başladılsa da, son zamanlarda Makron tərəfindən gündəmə gətirilir. Xüsusilə, Emmanuel Makronun prezidentliyi dövründə, Fransız İslam Layihəsi istiqamətində, İslam və müsəlmanlarla bağlı silsilə layihələr həyata keçirmək üçün güclü addımlar atıb. bu addımların ən aktualı Makronun arzusu olan Frankofoniya İslamıdır (4).

2007-ci ildəki seçkilərdən əvvəl, Sarkozi dünyəvilik müzakirəsində fikrini Fransada yaşayan müsəlmanların xarici əlaqələri üzərində cəmləmişdi. Sarkozinin Fransız İslamı ilə bağlı fikrincə, dini qurumlar, məscidlər üçün mollaları Fransa özü yetişdirməliydi. Milli Cəbhənin lideri Marin Le Penin açıqlamasında isə, Fransada radikal İslamın güclənməsinə qarşı məscidlərə kənardan yardımların kəsilməsinin lazım olduğunu da bildirib (6). Makron

dövründə İslamla bağlı çıxışlarında respublikanın və İslam dininin problem yaşaması üçün heç bir səbəb olmadığını, sadəcə, ediləcək tənzimləmələrlə respublikanın ruhuna uyğun İslam çərçivəsini təqdim edəcəklərini bildirib (7).

Fransız İslam layihəsi, İslamın yenidən nəzərdən keçirilməsi və ya milliləşdirilməsi ideyasına əsaslanaraq, müasir, milli İslam modeli yaratmağı hədəfləyir. Qərbdə hökm sürən oryantalist düşüncəyə görə, İslam, yəhudi və xristian adət-ənənələrinin mənasız bir şərhi olaraq təzahür edir və İslamın ibtidai cəmiyyətlər üçün hazırlanmış bir inanc olması fikri irəli sürülür. Ona görə də Qərb şərqşünaslarının fikrincə, İslamın müasir və mədəni qaydalara uyğun yenidən formalaşması lazımdır (5).

Müxtəlif konseptuallaşmalarla müzakirə edilən və üzərində ciddi müzakirələr aparılan Fransa İslamının elanı, Avropada yaşayan müsəlmanların həyatını asanlaşdırmaq, gündəlik həyatda rast gəlinən islamafobik hərəkətləri azaltmaq, ölkədə yaşayan müsəlmanlara qarşı öz kimliklərini qorumaq üçün həyata keçirilən əməliyyat kimi göstərilir. Əslində, Fransada uzun müddət ictimai elmlərdə adı çəkilməyən və gizlədilən "İslam və müsəlman problemi", müasir dövr texnologiya vasitələrinin, gündəmə gətirilən canlı reportajların, bu məsələ ilə bağlı yazılan məqalələr, əsərlər nəticəsində, dövrün əsas müzkirə məsələlərindən birinə çevrilmişdir.

Yaxn Şərqin müxtəlif bölgələrini təsir altına alan Ərəb baharı hadisələri və bölgədə yeni terror qruplarının yaranması, Qərb mediasında hadisələri şərh edərkən İslamafobik ifadələrin istifadə olunmamasını mümkünsüz edirdi. Ərəb Baharı prosesi ilə birlikdə, əksəriyyəti Fransanın təsiri altında olan Ərəb ölkələrinin idarəçiliklərinə fərqli İslamçı qrupların nəzarət etməsi, Fransa siyasətində İslama qarşı çıxışları gücləndirdi. Ərəb baharı hadisələri qərbdəki müsəlmanlara qarşı təzyiq və hücumlara çox təsir etdi. Fransız mediasında İslamı təhlükəli göstərmək məqsədi ilə, sağçıların aqressiv yazıları cəmiyyətdə müsəlmanlara və məscidlərə qarşı keçirilən aksiyaların sayını artırdı. 10 noyabr 2012-ci il tarixində Paris küçələrində keçirilən kütləvi nümayişdə, "Elzas-Lotaringiyanın islamlaşmasına yox!", "İslam Luvrdan çıx!" (8) kimi şüarlar səsləndirilərkən, bu məqsədlə müxtəlif qruplar nümayişə böyük maraq göstərdi. İstər Fransa cəmiyyətində artan anti-İslam meylləri, istərsə də bu tendensiyaların siyasi platformaya yansımasında, medianın islamafob dilindən məharətlə istifadə etmə bacarığının əhəmiyyətli rolu olduğunu söyləsək, yanılmarıq.

*Nəticə*

Avropa dövlətlərinin tarixinə nəzər salarsaq, demək olar ki, hamısının İslam və müsəlmanlara qarşı düşmən münasibət bəslədiyini söyləsək yanılmarıq. Tarixi prosesdə müsəlmanları və İslamı hədəf alan Fransa, həm daxili siyasətdə yaşanan problemlərə görə, həm də xarici siyasətdə təsirli olmaq məqsədi ilə, İslamın Avropada təsirli olmasının qarşısını almaq üçün müxtəlif addımlar atmışdır. Dünyada dünyəvi sistemin ilk qurucusu və icraçısı olan Fransa, dünyəviliyi əsas alaraq, islahat yolu ilə özünə aid olmayanı dəyişməyə çox həvəslidir. Eyni zamanda, Fransa inqilabının əsas prinsipi olan bərabərlik, azadlıq və qardaşlıq prinsipini pozaraq, İslam dinini dəyişdirmək üçün Fransız İslamı layihəsini yaradaraq, müsəlmanlara qarşı ayrı-seçkilik siyasətini yeridir. Avropa qitəsində Almaniyadan sonra ən çox müsəlman əhalisi olan Fransa, tarixdən gələn müstəmləkəçi yanaşmanın izlərini daha dərinə aparmaqdadır. Fransa rəhbərliyi, İslamın və müsəlmanların varlığından yaranan narahatlıq səbəbindən, zaman-zaman müxtəlif layihələr yaratmışdır. Dünyəvilik qanununa görə dərnəklərə birbaşa maliyyə yardımı edə bilməyən Fransa, xarici ölkələrdən müsəlman dərnəklərinə verilən maliyyə dəstəyini nəzarətdə saxlamaq üçün, müxtəlif tənzimləmələr gündəmə gətirmişdir. Fransız İslamı mövzusunda 2016-cı ildən bu yana müxtəlif addımlar atan, Fransa prezidenti Makron, ölkədəki müsəlman qurumlarına və ibadət ocaqlarına edilən

yardımları beynəlxalq müdaxilə kimi görür və bu vəziyyətdən narahatdır. Fransada yaşayan müsəlmanların böyük əksəriyyəti, Fransadakı İslamafobiyanın siyasətçilərin qərəzli çıxışlarından və medianın təbliğat xarakterli yazılarından qaynaqlandığını düşünür. Ümumiyyətlə, görünən odur ki, ölkədə yaşayan müsəlmanlar, Fransız İslamı layihəsinin qaydalarından, seçki yaxınlaşdıqca İslam əleyhinə bəyanatların və onlara qarşı təzyiqlərin artacağından narahatdırlar. Ərəb baharı hadisələrinin yeniliyi və Fransanın hakim olduğu coğrafiyalarda islamçı qrupların siyasi arenada aktiv olması, Fransa siyasətində anti-İslam müzakirələrinin aktual olaraq qalacağını göstərir. Nəticə etibarı ilə, Fransada İslamın yerini müəyyənləşdirərkən, İslamı və müsəlmanları təhlükəsizlik məsələsi kimi görməkdən kənara çıxmağı bacarmaq lazımdır. Bu yanaşma, Fransada İslama yer olmadığını göstərən siyasətin əksidir. Əgər Fransada İslama yer veriləcəksə, digər dinlərin tutduğu yer və münasibət göstərilməli, müsəlmanlar özlərini Fransaya aid hiss etdirilməlidir.

ƏDƏBİYYAT

1. Aurelien Mondon, "The Mainstreaming of the Extreme Right in France and Australia: A Populist Hegemony?", Ashgate Publishing, 2013, s. 189.
2. Bob Pitt, "Liberty, Equality and Islamophobia", http://www.islamophobia-watch.com/islamophobia-watch/2012/12/15/the-french-left-and-islam.html, 5 fevral 2023.
3. Dağ A. Avrupa ve modernite sarmalında bir İslam arayışı olarak: Euro-İslam. Sinop Üniversitesi Sosyal Bilimler Dergisi, 2(2), 2018, s 165-184.
4. https://www.star.com.tr/acik-gorus/macronun-fransa-islami-projesihaber-1390187/, Erişim Tarihi: 17.09.2022.
5. Jennifer A. Selby, "Islam in France Reconfigured: Republican Islam in the 2010 Gerin Report", Journal of Muslim Minorty Affairs, Vol.31, No:3, 2011.
6. Le Figaro. Le Pen: L'islam de France N'existe Pas. Erişim adresi https://www.lefigaro.fr/flashactu/2012/10/07/97001-20121007FILWWW00202-le-pen-l-islam-de-france-n-existe-pas.php , Erişim Tarihi: 28.07.2022.
7. Mehr News Agency. https://tr.mehrnews.com/news/466250/SarkozyFrans%C4%B1z-Usul%C3%BC-%C4%B0slam-%C4%B0stiyorum , Erişim Tarihi: 17.09.2022.
8. "Nos Ennemis Islamistes", Le Point, 24 yanvar 2013
9. "Sarkozy attempts to quell halal controversy at Paris mosque", RFI English, http://www.english.rfi.fr/france/20120314-sarkozy-attempts-quell-halal-controversy-paris muslims , 14 Mart 2022
10. Tibi, B. The Islamist venture of the politicization of Islam to an ideology of Islamism: A critique of the dominating narrative in Western Islamic studies, An Interdisciplinary Journal, 96(4), 2013, s. 431-449.

УДК 94 “19/...”

*Ф.М.Аллахвердиева*
*Бакинский Государственный Университет*

ФРАНЦУЗСКОЕ ВОСТОЧНОЕ ПОНИМАНИЕ ИСЛАМА: МЫСЛЬ ФРАНЦУЗСКОЙ ИСЛАМСКОЙ МЫСЛИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Франция, ислам, исламофобия, политика, взгляд востоковеда

В последние годы европейские страны начали принимать определенные меры против ислама и мусульман. Действия Франции, которую можно причислить к государствам-гегемонам Европы, в отношении ислама и мусульман ускорились на фоне последних событий в мире. Число граждан-мусульман, составляющих значительную часть западного общества, в Европе продолжает расти день ото дня. При этом на первый план выходят их социальные потребности, ожидания и проблемы. Таким образом, французское правительство было вынуждено сформулировать политику против ислама, как для примерно шестимиллионного мусульманского населения, проживающего в его стране, так и для всего мира. Ислам, распространившийся сегодня на пяти континентах мира и внесший вклад в мировую культуру с момента своего зарождения, в последние годы стал важным фактором внутренней и внешней политики западных стран, особенно Франции. Исламофобия (исламофобия), сформировавшаяся на Западе после террористических событий в Америке 11 сентября и получившая еще более широкое распространение после событий «арабской весны», особенно во Франции, до сих пор является предметом актуальных дискуссий.

UDC 94 “19/...”

*F.M.Allahverdiyeva*
*Baku State University*

FRANCE'S ORIENTALIST UNDERSTANDING OF ISLAM: THOUGHT OF THE FRENCH ISLAMIC THOUGHT
*SUMMARY*

*Key words:* France, Islam, Islamophobia, politics, orientalist view

In recent years, European countries have started to take certain measures against Islam and Muslims. Actions taken by France, which can be counted among the hegemonic states of Europe, regarding Islam and Muslims, have been accelerated against the background of recent events in the world. The number of Muslim citizens, who make up a large part of Western society, continues to increase day by day in Europe. With this, their social needs, expectations and problems come to the fore. Thus, the French government was forced to formulate a policy against Islam, both for the approximately six million Muslim population living in its country, and for the world. Islam, which has spread to five continents in the world today and has contributed to world culture since its inception, has become an important factor in the domestic and foreign policy of Western countries, especially France, in recent years. Islamophobia (Islamophobia), which was formed in the West after the terrorist events in America on September 11, and which spread even more widely after the events of the Arab Spring, especially in France, is still a topic of actual discussion.

***Daxil oldu: 09.02.2023-cü il***